# Beynəlxalq Multikulturalizm qış məktəbi işini başa çatdırıb









Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə fəaliyyətə başlayan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbinin yekunları və nəticələri ilə bağlı fevralın 15-də mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, BBMM-in əməkdaşı Tofiq Abbasov mətbuat konfransını açaraq qış məktəbi iştirakçılarının təəssüratlarının hər kəs üçün maraqlı olacağını deyib.

Portuqaliyalı Antonio Mendes çıxışında bildirib ki, Azərbaycana gəlməzdən öncə multikulturalizmi ancaq Portuqaliya cəmiyyətinə xas olan bir dəyər hesab edirdi: "Azərbaycana gələndən, sizin bu sahədəki təcrübə ilə tanış olandan sonra görürəm ki, burada da müsbət meyillər özünü büruzə verir. Dini, irqi problemlərin olmadığı cəmiyyətlər sağlam cəmiyyətlərdir. Mənim yaşadığım Portuqaliyada müsəlmanlarla heç vaxt problemlər yaşanmır. Mən özüm Portuqaliya yəhudisiyəm və Portuqaliya-İsrail Dostluq Assosiasiyasının üzvüyəm, tez-tez müxtəlif ölkələrdə oluram və paralellər aparmaq imkanım olur. Ünsiyyətə, dialoqa açıq olan cəmiyyət dərhal gözə çarpır. Mənim yaşadığım ölkədə tolerantlıq ənənələri çox uzaqlardan - XVII-XVIII əsrlərdən gəlir və bu, çox müsbət ənənədir, sabitliyin təməlini möhkəmləndirir. Coğrafi baxımdan bizə yaxın olan Mərakeş müsəlman ölkəsidir. Orada tez-tez oluram və görürəm ki, orada yaşayan insanlar da azaddüşüncəli, saffikirli, ünsiyyətə açıq insanlardır. Mən orada özümü çox azad hiss edirəm. Belə hissləri Azərbaycanda da yaşayıram. Açıq etiraf etsəm, buraya gəlməzdən əvvəl Azərbaycan haqqında cüzi anlayışlarım var idi. İndi görürəm ki, Azərbaycanda yaşayan insanların da hamısı dözümlü, yeniliklərə açıq insanlardır və qəti bildirmək istəyirəm ki, Azərbaycanda gördüklərim mənim gözlədiklərimi qat-qat üstələdi".

Nigeriyalı İbrahim Akinyemi bildirib ki, o, ADA Universitetinin tələbəsidir: "Demək istəyirəm ki, bu ali təhsil ocağı özü-özlüyündə multikulturalizm ənənələrini təcəssüm edir. Tam əsasla deyə bilərəm ki, Azərbaycan multikulturalizmi mənə çox yaxın bir anlayışdır. Buradakı dözümlülük, ünsiyyətə açıqlıq təkcə paytaxt üçün deyil, əyalətlər üçün də səciyyəvidir. Biz Beynəlxalq Multikulturalizm qış məktəbi çərçivəsində Qubaya, Xaçmaza, Qusara, Şahdağa səfər etdik və hamımız bir daha şahid olduq ki, tolerantlıq Azərbaycanın hər yerində oturuşmuş dəyərdir. Azərbaycan və Nigeriya hər ikisi bənzər göstəricilərə malikdir: hər ikisi neft ölkəsidir, bizim xalqlar oxşar problemləri həll edir. Ancaq multikulturalizm modelinə gəldikdə deyə bilərəm ki, Azərbaycan multikulturalizmi modeli mənim ölkəm üçün çox yararlı ola bilər. Hətta açıq etiraf etməli olsam, bu model digər Afrika ölkələrinə tətbiq edilsə, xeyli yüngüllük gətirə bilər. Çünki sizin ölkənizdə yaranmış təcrübə əsasında cəmiyyət üçün sabitləşdirici mexanizmlərin tətbiqi çox müsbət təsir göstərə bilər".

Polşalı Joanna Jasinka diqqətə çatdırıb ki, həyatında ilk dəfədir belə bir məktəbin dinləyicisi olub: "Məni mütəəssir edən odur ki, bu sülhsevər ölkədə dövlət, hökumət, dini və ictimai qurumların nümayəndələri ilə görüşlərdə mən özüm üçün bu qonaqpərvər ölkə barədə çoxsaylı həqiqətləri aydınlaşdırdım. Əvvəla, həmin o qurumların nümayəndələrinə öz adımdan və tələbələrimiz adından dərin təşəkkürümü bildirirəm ki, vaxt tapıb bizə diqqət yetirdilər və eyni zamanda, bizim məlumat bazamızı xeyli genişləndirdilər. Bu, təbii bir şeydir ki, insanları təkcə müsbət emosiyalar, yaxşı anlar deyil, hətta problemlər də yaxınlaşdırır. Biz Azərbaycanda bir şeyin də şahidi olduq ki, burada insanlar təkcə ürəkaçan mətləblərdən deyil, qayğılardan da danışmağa açıqdırlar. Məhz çətinlikləri dəf etdikdə insanlar bəzən bir-birilərinə yaxın olurlar, həmfikirə çevrilib bir çox məsələlərin öhdəsindən gəlməyə qadir olurlar. Şadam ki, biz, 17 ölkənin nümayəndələri məhz Azərbaycanda bir-birimizi tanıyıb təkcə ayrı -ayrı fərdlərin deyil, hətta qlobal toplumun problemlərindən danışıb onlara öz münasibətimizi bildirdik, Azərbaycanın ibrətamiz multikultural təcrübəsi ilə yaxından tanış olduq. Ola bilsin ki, biz həyatımızda hansısa problemlərin öhdəsindən gəlmişik, amma irəlidə bizi hələ sınaqlar gözləyir. Etiraf etməliyəm ki, burada ilk dəfə olaraq və qış məktəbinin tam kursunu keçərək şəxsən mən özümü təsdiq etmək üçün faydalı məktəb keçdim".

Gürcüstanlı Georgiy Saladze azərbaycanlı, müsəlman Əli və gürcü, xristian Nino arasında yaşanan məhəbbəti və onların uzun müddət sevgi içərisində Bakıda birgə yaşamasını multikulturalizmin göstəricisi kimi səciyyələndirib: "Bu dözümlülük, tolerantlıq tarixən bizim xalqlara xasdır. Biz qonşu xalqlarıq, birgə inkişaf proqramlarının, meyillərinin həyata keçirilməsində əməkdaşlığımız zəruridir. Sevgi güclüdürsə, məqsədə, amala bağlılıq varsa, dinin, milliyyətin fərqi yoxdur və o zaman bütün çətinliklərin öhdəsindən gəlmək mümkündür. Qış məktəbinə gəlincə, çox yüksək səviyyədə təşkil olunmuşdu, təşkilatçılar bizə qarşı çox diqqətli və dəqiq idilər. Biz mədəniyyətlərimiz, tariximiz haqqında söhbətlər edirdik, bu təcrübə mübadiləsi bizim aramızdakı dostluq tellərini daha da möhkəmləndirdi".

Rusiyalı Varvara Filipova bildirib: "Mənim təmsil etdiyim Moskva böyük bir dünyadır və onun da çoxsaylı problemləri var. Onun da miqrantlar, ünsiyyət açıqlığı problemləri mövcuddur. Bu problemlərin həlli ilə bağlı tədqiqatlar aparılır. Mənim Azərbaycanda gördüyüm bu mühit özündə təbii və müsbət bir təcrübəni ehtiva edir. Bəlkə də öz gözümlə görməsəydim inanmazdım ki, sizin ölkənizdə belə multikultural şərait hökm sürür. Dərhal anlayıb dərk edirsən ki, bu qondarma bir məfhum deyil, əsrlərə söykənən bir dəyərdir. İnanın ki, təmsil etdiyim rus xalqı da multikulturalizmə "hə" deyir və əgər seçmək hüququm olsa, mən Azərbaycan multikulturalizmi modelinə səs verərdim. Çünki bu model həm işləkdir, həm də ümidvericidir. Mənim şəxsi müşahidələrim bunu deməyə əsas verir".

Rusiyalı Aleksandra Panteleyeva burada hər şeyin nə qədər gözəl olduğunu ifadə etmək üçün söz tapmadığını deyib: "Ən böyük nailiyyət də ondan ibarətdir ki, biz burada real multikultural mühiti gördük. Bir çox mədəniyyətlərin qovuşduğu bu qış məktəbində iştirak etmək bizim üçün böyük şansdır. Bu, mənim üçün çox gözəl təcrübə idi. Bu şans üçün sizə təşəkkürümü bildirirəm".

Almaniyalı Tobias Fernandes söyləyib ki, Azərbaycanda olduğu üçün çox xoşbəxtdir: "Bir çox müzakirələrə qatıldım və olduğumuz atmosferə azad ruhun hakim kəsildiyinin şahidi oldum. Mənə elə gəlir ki, qış məktəbində iştirak edən tələbələrin bir çoxundan yaşca böyüyəm və mənim həyat təcrübəm daha çoxdur. Müqayisəli yanaşdıqda dərhal hiss edirdim ki, gördüklərim ən yüksək qiymətə layiqdir. Azərbaycanda insanların simasında gülüş, pozitiv enerji gördüm. Dil baryeri olmasına baxmayaraq, burada çox azad, tolerant atmosfer var. Dil bilib-bilməməsindən asılı olmayaraq, hamı kömək etməyə, əl tutmağa hazırdır. Bu, elə multikulturalizmin ifadəsidir. Təsəvvür edin ki, mən vegetarianam, ilk gündən Azərbaycanda qış məktəbinin təşkilatçıları qərar verdilər ki, mənim menyumda ancaq tərəvəzdən hazırlanan yeməklər olsun. Mən daxilən sıxıntı keçirsəm də, gördüm ki, bu məsələni ev sahibləri elə rahatlıqla həll etdilər ki, sıxıntım qalmadı. Mənə elə gəlir ki, Azərbaycan cəmiyyətinə qarşılıqlı anlaşma metodologiyası xasdır. Haqqında danışdığım epizod kiçik görünsə də, əslində böyük mətləbdən xəbər verir. Qış məktəbinin təşkilatçıları hər şeyi o dərəcədə səlis, harmonik şəkildə hazırlamışdılar ki, bu neçə günü biz burada, sözün əsl mənasında, rahatlıq hissi ilə düşündük, işlədik, yaşadıq. Mən burada həm qış məktəbinin xarici, həm də azərbaycanlı iştirakçıları sırasında özümə xeyli dost qazandım. Əminəm ki, burada yaranan bu münasibətlər öz layiqli davamını tapacaq. Bu, o deməkdir ki, biz artıq hər birimiz həm öz xalqlarımıza, həm də Azərbaycan xalqına xas olan multikultural dəyərlərin daşıyıcısıyıq".

Sonra "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi - öyrən, araşdır, paylaş - 2016" Beynəlxalq Multikulturalizm qış məktəbinin bağlanış mərasimi keçirilib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev mərasimdə çıxış edərək deyib: "Yəqin ki, bizim bir yerdə keçirdiyimiz bu son gecə hamımızın xatirində ömrümüz boyu qalacaq. Mən bilirəm ki, bizim bir çox tələbələrimizi artıq göz yaşları, qəhər boğmağa başlayır. Bu yaxındakı ayrılıq həsrəti ilə bağlıdır. Amma mən ona da inanıram ki, gələcəkdə belə görüşlərimiz tez-tez olacaq. Qış məktəbinin baş tutmasında əməyi keçən hər kəsə, bütün qurumlara dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, bu ideyanın, bu layihənin ən böyük təşəbbüskarı Prezident İlham Əliyevdir və ən böyük təşəkkür də ona düşür. Bu günlər ərzində siz bir çox qurumlarda, nazirliklərdə oldunuz, Bakıda və Azərbaycanın bir çox şəhərlərinə səyahət etdiniz. Mən bu görüşlərin keçirilməsində xüsusi xidməti olan şəxslərə, mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya, burada olmayan, amma ürəyi bizimlə olan gənclər və idman naziri Azad Rəhimova, Bakının Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, Quba, Xaçmaz və Qusar şəhərlərində sizinlə vaxt keçirən, dövlət, hökumət nümayəndələrinə, ziyalılarımıza dərin təşəkkürümü bildirirəm. Mən bu günlər ərzində sizinlə intellektual söhbətlər aparan, mühazirələr oxuyan, "dəyirmi masa"lar təşkil edən həm Almaniyadan, Rusiyadan, Litvadan, Gürcüstandan, İsveçrədən gələn alimlərimizə, eyni zamanda, Azərbaycandan bu layihəyə qatılan ziyalılarımıza təşəkkür edirəm. Əlbəttə ki, həm də bu layihəni təşkil edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Bilik Fondunun və Bakı Slavyan Universitetinin rəhbərliyinə və kollektivinə xüsusi təşəkkür düşür. İnanıram ki, azərbaycanlı tələbələrimiz də xarici həmyaşıdları ilə mənalı günlər keçiriblər. Eyni zamanda, onların getdiyi yerlərdə - Quba, Qusar, Xaçmazda, Binəqədi rayonunda yerli gənclərin də onlara qoşulması tədbirlərinizi daha maraqlı və faydalı edib. Bu tədbirin məqsədi təkcə sizlərin Azərbaycana olan marağını məhəbbətə çevirmək deyildi, bu, eyni zamanda, azərbaycanlı gənclərin sizin təmsil etdiyiniz İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Rusiya, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya, Almaniya, Nigeriyaya olan məhəbbətini təmsil edirdi, bu, sevginin daha da dərinləşməsinə gətirirdi. Qış məktəbi çərçivəsində daha maraqlı bir layihəsinin də həyata keçməsinin şahidi olduq. "Qardaşlaşmış məktəblər" layihəsinə bu dəfə Rusiya, Türkiyə və Azərbaycan məktəbliləri qoşuldular. İnanıram ki, gələcəkdə gənc nəslin bu nümayəndələrinin bir-biri ilə dostluğu və bir-birinə məhəbbət dolu qarşılıqlı münasibətləri həyatları boyu davam edəcək. Bu gün Azərbaycan müxtəlif millətlərin, dinlərin, irqlərin qaynayıb-qarışdığı və bir mənəvi bütövlük hiss etdiyi bir Vətənə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev gələcəyə nikbinliklə baxır və belə deyir: "Multikulturalizmin dünyada alternativi yoxdur. Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq". Elə buna görə də Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etdi və bütün dünyaya azərbaycanlıların mərhəmət, şəfqət, başqasının halına acıma, başqasını öz yanında görmək, başqasına xor baxmamaq kimi dərin duyğularını bütün dünyaya nümayiş etdirdi. Gələcəkdə sizin hamınızı yenidən Azərbaycanda görmək arzusundayıq. Sizin xalqlarınıza əmin-amanlıq, rifah və xoşbəxtlik arzulayıram".

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan multikulturalizminin, mədəniyyətinin, tarixinin dünyaya tanıdılması baxımından Beynəlxalq Multikulturalizm qış məktəbinin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Beynəlxalq Multikulturalizm qış məktəbinin uğurla başa çatması münasibətilə layihənin həm təşkilatçılarını, həm də iştirakçılarını təbrik edib.

Çıxışlardan sonra qış məktəbi iştirakçıları, eləcə də qardaşlaşmış məktəblilər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıblar.

Qış məktəbinin tələbələrinə sertifikat və hədiyyələr təqdim edilib.

Mərasim musiqili-bədii axşam proqramı və ziyafətlə yekunlaşıb.

Bununla da "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi öz işini başa çatdırıb.